# VƏTƏNDAŞ SƏRÇƏ



*RAFİQ MUSA*

Bir sərçə
Suvağı düşmüş bir divarın
Yuxarı başında,
Ömrünün bu yaşında
Yuva qurmuşdu.
Dünyanın xeyir-şərini
Biirdəfəlik unutmuşdu.
Yayda istidə, qışda soyuqda,
Bu yöndəmsiz oyuqda,
Yaşayırdı birtəhər.
Allahına üz tutub
Şükr edirdi hər səhər.
Qorxurdu, bilirdi ki,
Bir gün mala çəkərlər
Divarın oyuğuna.
Atarlar onu qışın soyuğuna.
Hələ ki, bir kimsənin
Gözünə dəymirdi yuvası.
Bəlkə də Allaha
çatmışdı duası.
Çətinliklər
gəlməsə də eyninə,
Xoş gün, xoş güxəran
"Batmayırdı" beyninə.
Bu kiçik yuvaya
Göz dikənlər də var,
Hərdən bura "baş çəkir"
Quzğunlar," qarğalar.
Bir zaman budaqda da
Yuva qurmağı vardı,
Xoşbəxt yaşamağı vardı.
Əlindən aldılar ağacları
Bəs yaşasın harda?-Divarda!
Belə də iş olar?
Qoymurlar xırmanda
qalsın bir dən.
Yaş-yaş daşıyırlar,
Hər kəs dad çəkir,
Oğruların əlindən.
Böz sərçənin sən deyən
Elə bir arxası yox, dayağı yox,
Özgənin yuvasına
Tamahı, marağı yox.
Nə Dubaylıq halı var,
Nə Bodrumda dincəlir.
İki gün dən tapmasa,
Saplaq kimi incəlir.
Sevməyir qəribliyi,
Xırmanı bol olsa da.
Vətənini tərk etməz
Qarğalar qanadını,
Quyruğunu yolsa da.
Əsla uçub getməyib,
Vətəndən uzaqlara
Sərçə hara, qəriblik hara?!
Sən deyən elə də
Həvəsi yoxdur
Pul tapıb getsin
"Quş adası"na.
Axı bu yazığın dincəlmək,
De, yaraşır harasına?!
Bu quşbeyin sərçəyə
Hər şey yaxşı bəllidi.
Ətcəbalalarına
Kənardan bir kömək yox,
Özü böyütməlidir!
Tərif deyilməyidir
Şəninə bircə.
Balalarının xətrinə,
Bir balaca dən üçün
Canından keçər sərçə.
Sərçə narahatdır çox,
Bu villa yiyəsinə
Çox da etmir etibar,
Bu adamın nə adamlığı,
Nə də insafı var.
Tez-tez dəyişir
Bu evin ab-havası.
Dedi-qodu kəsilmir
Bitmək bilmir davası,
Çoxdan-çoxdur xatası.
Dəbdəbəli bu evin
Divarında yaşamaq d
Bir elə də deyil asan.
Çətin işdir haram evin
Haram divarında
Yuva qurub, yaşayassn!
Hərdənbir bu divarın
O üzündən səs gəlir,
Səs filankəsdən gəlir,
Deyilənə görə bu villa
Nazir də, maşallah olmasın,
Hazırın nazjrjdj.
Bilmək olmur,
Nardandır bu gəlit?!
Deyirlər, gecə rüşvət,
Gündüzlər "nəzir"gəlir.
Sərçə çox istərdi
Rahat olsun.
Dəbdəbəli olmasa da,
Halal təməl üstündə
Qurulan bir evin
Divarında yuva qursun.
Axı bu saray
Halallıq üstə
Tikilməyibdir.
Qalmaqallı bu evdə
Hər gecə apar-gətir,
Hər kəs bilir
Bu evin "dərdi" nədir.
Sərçəni fikir alır:
-Bu evin qalmaqalı var.
Yazın istisində bürküdə,
Qışın soyuğunda
Çöldə qalmağı var.
Suvağı qopmuş bu evin
Suvanmağı da var.
Sərçənin həyatı
Maraqlandırmır heç kimi.
Yad divarda yuva qurub
Sığınıb yuvasına
Yetimlər qoltuqlara
sığınan kimi.
Bəzən günlərlə ac!
Qalır bir quru
Dənə möhtac.
Bu quşbeyin sərçəni
"Adam" yerinə qoyan yox,
Sevinci az, dərdi çox ,
Yerdə yeri, göydə göyü dar.
Ona qənim kəsilir
Qara qarğalar.
Qonmaq istəyəndə
Torpağı zəbt edən
qarğalar onu qaralar.
Sərçə hələ də əzəlki dünyasını,
Təbrizin, Dərbəndin
Həsrətini yaşayır,
Ancaq günləri sayır.
Araz gözlərinin yaşıdı,
Bu torpağın qara daşı,
Ona baş daşıdı.
Fikirlidir boz sərçə,
Özü kimi quşların
Həmdərdi, sirdaşıdı.
Bu torpaq, bu səma
Sərçənindir, nə olsun!
Torpaqları zəbt ediblər.
Qoymurlar sərçəni
Heç olmasa ayağını
Torpağa toxundursun.
Nə örüş yeri qalıb,
Nə söyüş yeri.
Özü də bilmir,
İrəli getsin, yoxsa geri.
Boz sərçənin qazancı yox
Aparsın evinə,
Sevinə-sevinə.
Yuvası boş,
Əli boş,
Bu həyatın nəyi xoş?!
Ürəyində dərd yükü,
Sinəsində quruyan
Gözlərinin yaşıdı.
Bu sərçə sərçə deyil,
Vətən vətəndaşıdı.

*2025*